Respublika.-2019.- 7 noyabr.- S.6.

Mirzə Şəfi Vazehin xatirəsi Berlinin Humboldt Universitetində anıldı

Bu günlərdə dünyanın ən nüfuzlu təhsil ocaqlarından biri olan Humboldt Universitetində Xalq Bankın, "Q Gallery Berlin"in və Azərbaycanın Almaniyadakı Səfirliyinin birgə təşkilatçılığı ilə "Xalq Əmanəti" layihəsi çərçivəsində yeni dərc olunan Mirzə Şəfi Vazehin "Bütün əsərləri"nin elmi ictimaiyyətə təqdimatına həsr olunmuş konfrans keçirildi.

Konfransda Humboldt Universitetinin professoru Eva Maria Aux çıxış edərək Mirzə Şəfi Vazehin yaradıcılığından, özünəməxsus poeziyasından danışdı. Vazeh yaradıcılığına rəğbət nümayiş etdirən alman professor, 3 dildə dərc olunan yeni kitabı Mirzə Şəfi Vazehə layiq olduğu ehtiram, eyni zamanda onun oxucularına qiymətli hədiyyə kimi təqdim edərək dedi: *"Mənim fikrimcə, bu təkcə xoş bir gün kimi deyil, həm də vacib bir hadisə kimi yadda qalacaq. Alman-Azərbaycan mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsinin növbəti nümunəsini Mirzə Şəfi Vazeh və Fridrix fon Bodenştedt vəhdətində görürük. Məncə, bu ən uğurlu nümunələrdəndir. Mirzə Şəfi Vazehin kitabının 145 dəfə alman dilində çap olunması faktının özü artıq heç bir şərhə yer saxlamır".*

Azərbaycanlı dilçi alim, professor Fəxrəddin Veysəlli isə çıxışında Vazeh yaradıcılığının Azərbaycan-alman mədəniyyətləri arasında uğurlu körpü rolu oynadığını və bu işdə Fridrix fon Bodenştedtin xüsusi rolunu qeyd etdi.

Almaniyanın nüfuzlu tarixçi alimlərindən biri, professor Udo Ştaynbax da bu nəfis tərtibat haqqında danışdı: *"Mirzə Şəfi Vazehin yenidən və belə gözəl şəkildə alman dilində dərc olunması məni çox sevindirdi. Maraqlısı odur ki, Almaniyada Vazehin şeirlərini çox adam sevə-sevə oxuyur, amma müəllifi kifayət qədər tanımırlar. Mirzə Şəfi Vazeh və Bodenştedtin yaradıcı əlaqələrindən və bunun hər iki xalqa verdiyi gözəl töhfələrdən də kifayət qədər məlumatları yoxdur. Düşünürəm ki, bu kitab və onun universitetdə təqdimatı bu boşluğu doldurmaqda yardımçı olacaq".*

"Q Gallery Berlin" incəsənət mərkəzində davam edən bədii hissədə "Xalq Əmanəti" layihəsinin rəhbəri Rafiq Həşimov kitabın böyük bir kollektivin 5 ildən artıq bir müddətdə çəkdiyi zəhmətin bəhrəsi olaraq ərsəyə gəlməsi barədə məlumat verdi. O, ədibin 225 illiyinə təsadüf edən kitabın layihə çərçivəsində artıq 18-ci dəfə nəşr olduğunu bildirdi və öncəki işlərin nümayiş etdirildiyi stendi qonaqlara təqdim etdi. Mirzə Şəfi Vazeh yaradıcılığıdan bəhs edən natiqlərin çıxışlarından sonra Rafiq Həşimov və alman aktrisa Kristiana Foqt şairin əsərlərini Azərbaycan və alman dillərində səsləndirdilər. Vazeh poeziyasını özündə əks etdirən musiqi parçaları da qonaqları məmnun etdi.

Sonra aktrisa Kristiana Foqt çıxış edərək dedi: *"Maraqlıdır ki, Vazehin şeirləri mənə Höteni xatırlatdı. Ona görə də sirli Şərq ədibinin əsərlərini ilk dəfədən həvəslə və asanlıqla səsləndirdim. Düzü, dil, üslub, ritm baxımından mənə bu qədər yaxın olacağını düşünməzdim. Şeirlər ruhumu bütünlüklə vəcdə gətirdi. Etiraf edim ki, bu mənim üçün gözlənilməz oldu".*

Konfransın sonunda yeni nəşrin alman, Azərbaycan və rus dillərində olan nüsxələri, eyni zamanda Xalq Bankın "Xalq Əmanəti" layihəsinin digər kitabları hədiyyə olaraq qonaqlara təqdim edildi.

Mehparə ƏLİYEVA,
"Respublika".